**UOT 82**

# STEFAN SVAYQIN "MÖCÜZƏVİ GECƏ" ƏSƏRİNDƏ PERSONANIN DAĞILMASI VƏ İFADƏSİ

**Ayşən QARAXANOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 10 iyun 2025; çapa qəbul edilmişdir: 19 noyabr 2025; online-da çap edilmişdir: 17 dekabr 2025.

Received: 10th of June, 2025; accepted: 19th of November, 2025; published online: 17th of December, 2025.

**Açar sözlər:** *Stefan Svayq, Karl Qustav Yunq, arxetip, kölgə, persona*

## Giriş

Avstriyalı yazıçı Stefan Svayqın "Möcüzəvi gecə" əsəri insanın daxili dünyasının, mənəvi oyanışının və özünüdərk prosesinin dərin psixoloji təsviridir. Əsərdə varlı, zadəgan və həyatda heç bir çətinlik yaşamayan bir gəncin mənəvi boşluq və emosional donma vəziyyətindən keçərək öz "mən"ini tapması, yəni dirilməsi təsvir olunur. Qəhrəmanın həyatında zahiri rahatlıq və maddi bolluq olsa da, o, daxilən tənəzzül və mənasızlıq içindədir. Həyatında məqsəd və məna tapmayan bu insan yalnız gündəlik vərdişlər və süni zövqlərlə varlığını davam etdirir. Lakin təsadüfi bir gecə onun daxilində dərin bir silkələnməyə səbəb olur. O, illərlə gizlətdiyi, tanımadığı "kölgə" tərəfi ilə üz-üzə gəlir və öz insani hisslərini yenidən kəşf etməyə başlayır.

## 1. Səthi kimlikdən daxili boşluğa: personanın formalaşması və parçalanması

Stefan Svayqın "Möcüzəvi gecə" əsərində bir gəncin psixoloji vəziyyəti, həyata qarşı marağını itirməsi təsvir olunur. Bu gənc ailəsindən böyük miras qalmış, həyatda heç bir çətinlik çəkməmiş, yüksək təbəqəyə məxsus biridir. Qəhrəman iddialı deyil, fərqli arzuları yoxdur və həyatı sadəcə seyr edərək keçirir. Bu vəziyyətə gəlməsinin səbəbi isə qayğılardan azad olması və heç bir əziyyət çəkməməsidir; o, sadəcə gündəlik məşğuliyyətlərlə kifayətlənir. Əsərdə personaj özü haqqında deyir: *"Zərif, nəcib, varlı, həm də heç bir iddiası olmayan insanın bütün məmnuniyyəti məndə var idi"* (8, s. 8). Bu personajın həyatında məqsəd və məna tapmaq qabiliyyəti yoxdur, bəsit maraqları var; qumardan, ovdan və şərab stəkanları yığmaq kimi hobbilərdən zövq alır. Bu fəaliyyətlər ona əziyyət vermədən xoş vaxt keçirməyə kömək edir. Psixoanalitik tədqiqatlar insana dair bu vəziyyəti belə izah edir: *"Ümumiyyətlə, məna fərdin varlığında nizam, ardıcıllıq və məqsədlərə nail olmaq və onları müşayiət edən məmnunluq hissi kimi başa düşülür və bunu özündə ehtiva edir. Əslində fərdin həyatına məqsəd qoymasını, bu məqsəd çərçivəsində qarşılaşdığı suallara cavablar tapmasını, fərdin həyatına ardıcıllıq və ahəngdarlıq verən mənbə olmasını təmin edir. Fərdin həm öz daxilində, həm də kainatda nizam-intizamı həyata keçirməsinə imkan verir"* (7, s. 70). Qadınlarla münasibətdə özünü uğurlu hesab edən personajın sözləri onun haqqında təsvir yaradır: *"Özümə çox dəyərli xatirələr, dəyərli anlar və saatlar topladım. Özümü kefinə düşkün birindən, müdrik ustada yüksəltdim"* (8, s. 9). Göründüyü kimi, bu personajın həyatı materialist zövqlərdən

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* aysenqaraxanova7@gmail.com
https://doi.org/10.30546/25194011.2025.14.5.3069

ibarətdir: gözəl geyim, kitablar, avtomobil gəzintiləri və gözəl qadınlara maraq. Bütün bunlar onun özünü xoşbəxt hesab etməsinə və zadəgan cəmiyyətdə hörmət görməsinə imkan yaradır. Lakin bu sadalananlar göstərir ki, o, özünü aldatmaqla məşğuldur. Çünki onun xarakteri bütünlükdən məhrumdur, dərin mənəvi məqsədləri yoxdur, daxili boşluq hissi ilə üz-üzədir, personası sünidir. *"Persona, cəmiyyət və sivilizasiya tərəfindən müəyyən bir qəlibə salınmış insan təbiətinin vəziyyəti kimi müəyyən edilə bilər. Bu, dünya ilə münasibətləri qorumağa kömək edən bir zərurətdir. Cəmiyyətdə qəbul olunmaq və ya istədiyi dəyəri görmək üçün özündə olmayan maska yaradan insan iş yeri, ev və s. müxtəlif sahələrdə çoxlu müxtəlif maskalardan istifadə edir. Persona bir tərəfdən başqalarında təəssürat yaratmaq, digər tərəfdən isə indinin əsl mahiyyətini gizlətmək üçün nəzərdə tutulmuş maskadır. Personanın lazım olduğundan daha qalın səth yaratması arxetipin mənfi tərəfini ifadə edir"* (3, s. 254). Amma personajın özünü xoşbəxt hesab etməsi çox çəkmir. Getdikcə personaj həyatda monotonluq hiss edir və daha canlı yaşamaq istəyi ona hakim kəsilir. O, kədər, sevinc, təəccüb və arzu kimi insani hissləri yaşamır, bunlar olmadan həyat da ehtirassız və həyəcansız olur. Personaj cəmiyyətin ona biçdiyi obrazla yaşayır və öz ehtiyaclarını, hisslərini bilmir. Var-dövlət və sosial status ona həyatda məna verməyib. Bu vəziyyət psixoloji olaraq, daxili boşluq və məna axtarışının əlamətidir. Persona ilə bütünləşən insanın hisslərini itirməsi labüdləşir. Emosional təcrübələrin dərin şəkildə keçirilməsi və hiss edərək yaşamaq, fərdin psixoloji rifahı üçün vacib amildir. Lakin, təsvir olunan obrazda bu emosional yükün daşınmaması müşahidə olunur. Gənc kişi uşaq kimi sadəcə həyatdan alır, lakin həyata və insanlara vermək anlayışını inkişaf etdirə bilmir. Yaratmaq, işləmək, özünü və insanları anlamaq, insanları dinləmək və sevmək qabiliyyətləri onda zəifdir. Bu, xüsusilə sevgilisindən aldığı məktuba verdiyi reaksiyada daha aydın şəkildə nəzərə çarpır. Sevgilisi 14 səhifəlik məktubla başqası ilə tanış olduğunu və evlənəcəyini bildirəndə, gənc kişi heç bir kədər hissi yaşamır. Bu soyuqluq onun özünü də qorxudur. Ayrılığa dair hissləri yaşamaması, ondakı emosional tənzimləmənin zəifliyini göstərir. Özü haqqında deyir: *"Bu soyuqluğun bir ölüm halı olduğunu çox yaxşı bilirdim. Xaricdən görünən bədənim çürüməyə doğru gedirdi"* (8, s. 11). Gəncin uşaqlıq dostunun vəfatı onun emosional təcrübələrini yenidən qiymətləndirməsinə səbəb olur. Lakin o hələ də heç bir kədər hissi keçirmir. Bu da onun emosional donması və hisslərinin səthiliyini göstərir. Həyatın monotonluğu, məqsədsizlik və komfort zonasından çıxmamaq, onun hisslərinin donmasına səbəb olmuşdu. *"İnsan dözülməz ağrıya onun məqsədi olduğuna əmin olduqda dözə bilər. İnsanın öz həyatının daha dərin məna daşıması hissi insanı sadəcə olaraq vermək və almaqdan üstün tutur. Bu hiss olmadan insan itmiş olur"* (5, s. 89). Gəncin həyatında müxtəlif hadisələr və dəyişikliklər baş verir, lakin bunlar onun emosional vəziyyətinə təsir göstərmir. Bir yay səhəri günəş işığından təsirlənərək gəzintiyə çıxması ilə onun emosional təcrübələrində müvəqqəti bir canlanma özünü göstərir. O, günəşli şəhərin gözəlliyini, insanların xoşbəxtliyini hiss edir. Lakin, bu situasiya əslində onun kölgəsi ilə üzləşdiyini, yəni görmədiyi tərəfini görməsini təmsil edirdi. Məhz bu məqamda onun hisslərini itirdiyini anlamaq və bununla üzləşmək prosesi başlayır. Gəncin düşdüyü bu durumu kölgə konsepsiyası ilə izah etmək olar. Gəncin adi günəşli bir günə təsirlənməsi və təbiətin gözəlliyini hiss etməsi, uzun müddət gizlətdiyi kölgə tərəfi ilə üzləşdiyini və emosional təcrübələrini yenidən qiymətləndirməyə başladığını göstərir. Çünki bu emosional intellektin inkişafı və özünü anlamaq prosesində mühüm bir addımdır. *"Yunq göstərirdi ki, fərdlərin şüurunun yaratdığı bu kölgə şəxsiyyətin gizli, sıxışdırılmış, ləyaqətsiz, günahkar tərəflərini ehtiva edir"* (5, s. 120).

Kölgə şəxsiyyətin gizli, qəbul edilməyən tərəflərini təmsil edir, fərdin heyvani meylləri ilə bağlıdır. Şəxsiyyətin tam formalaşması üçün kölgə ilə üzləşmək vacibdir. Kölgəsi ilə üzləşən və qəbul edən fərd, həyatı daha canlı, emosional və hiss edərək yaşa-

yır. *"Eqonun dəyərsiz və dağıdıcı xüsusiyyətləri olduğu kimi, kölgə də normal instinktlər və yaradıcı impulslar kimi yaxşı keyfiyyətlərə malikdir"* (5, 120). Əgər insan sadəcə cəmiyyətə göstərdiyi xüsusiyyətləri ilə özünü tanıyıb onunla bütünləşirsə, deməli, o, yarımçıqdır. *"Uşaqlıqdan bu qalın səthin əmələ gəlməsinin qarşısını almaq üçün cəmiyyət fərd üçün qəbuledilməz olan xüsusiyyətləri gizlətmək və ya sıxışdırmaq lazım olur. İnsan yetkinləşdikcə cəmiyyətin arzuolunmaz tərəflərini şüursuzluğa itələyir. Bu halda bu cəhətlər birləşərək başqa bir kompleks və ya kölgə adlı bir alt şəxsiyyəti formalaşdırır"* (3, s. 254). Eqo və kölgə, şəxsiyyətin ayrılmaz hissələridir. Eqo ilə kölgənin birləşməsi, fərdin özünü tam və bütün hiss etməsinə səbəb olur, emosional və canlı yaşamağa yol açır. Gəncin təbiətin gözəlliyindən zövq alması və ətrafdakı insanların həyəcan və ehtirasını qısqanması, onun emosional təcrübələrinin yenidən canlanmasını göstərir. Deyir: *"Bu qədər həyəcanlı, isti hiss etməyim, bədənimin yanması, səsimin qeyri-ixtiyari olaraq ağzımdan çıxması üçün nə olmalı idi axı? Heç bir nəticə məni bu qədər həyəcanlandıra bilməzdi, heç bir qadın məni bu qədər cəlb etmirdi. Bu ağır hissdən məni alovlandıran heç nə yox idi"* (8, s. 16). İnsanların ona yaxınlaşıb onunla da danışmaq istəməsinə baxmayaraq, o, qarşılıq vermirdi. Onlarda öz əksini görməkdən sıxılır.

**2. "Kölgə" ilə qarşılaşma və daxili transformasiya prosesi**

Kölgə çox vaxt başqalarının üzərində əks olunaraq görünür. Başqasında gördükləri və bəyənmədikləri onun basdırılmış kölgəsidir. *"Ziyansızlıq və sadəlövhlük dərk olunmayan şəri "başqasının" üzərinə köçürür"* (6, s. 97). Bir yarışda gördüyü qadın onun diqqətini çəkir, onunla "oynamaq" istəyir, ona qarşılıq verir. Bu zaman gəncdə qadına qarşı nifrətlə qarışıq heyranlıq yaranır. Əslində əsəbləşir, çünki özündəki soyuq, pis şəhvəti başqasında da görür. Gördükləri ilə öz hissizliyi arasında yaxınlıq duyur. *"Biz qeyri-adi və gizlin bir şəkildə öz daxilimizdə olan şərdən qorxuruq, elə buna görə də, onu başqalarının üzərinə köçürmək, bu şərdən qaynaqlanan qorxunu daha da artırır"* (6, s. 97). Qadına qarşı davranışı, onu alçaltmaq istəyi getdikcə artır. Qadının kök həyat yoldaşı ilk baxışda yüksək cəmiyyətə yad olan səmimiliyi ilə seçilir. Qadının da öz ərinə görə utanmasını persona əlaməti hesab etmək olar. Romanda qadınla maraqlı bir epizod diqqət çəkir. Qadının əri ilə toqquşması, yarış biletlərinin yerə dağılması, üzr istəməkdən çəkinməsində gənc bir agahlıq yaşayır. *"Nifrət, qarşısı alınmaz qəzəb! Bu pis səhnəni əbədi olaraq uzatmaq istədim. Biletlərini parça-parça yığmaq üçün özünə işgəncə verməsini soyuq ehtirasla izlədim. Boğazımda həmişə gülmək istəyən bir şeytan var idi. Gülmək və ya bu sürünən ət kütləsini çubuqla təsir etməyi çox istəyirdim*" (8, s. 24). O bundan zövq alır və zövq aldığının da fərqində idi. *"Kölgə şüursuz psixikanın bütünü deyil. O, eqonun bilinməyən və ya az tanınan xüsusiyyətlərini, tamamilə şəxsi sahəyə aid olan cəhətləri təmsil edir və bunlar asanlıqla şüurlu ola bilər. Ancaq kölgə yalnız nəyin yarımçıq qalmış və ya əskik olduğu ilə bağlı deyil. Eyni zamanda çox tez və anidən baş verəndə də görülür. Fikirləşməyə fürsət tapmadan ağızdan pis söz çıxır, intriqa, yanlış qərar həyata keçirilir"* (5, s. 169). Kişi biletlərdən birini unudur, o isə bileti gizlədir və kişinin bileti tapa bilməməsi üçün özü götürür, bilet isə yarışda qalib gəlir. *"Pislik etməklə kök kişini pulundan məhrum etdim. Bir anda təkəbbürlü halım geri döndü, onu nə qədər narahat etdiyimi bilmək istədim"* (8, s. 27). Gənc hər şeyin fərqindədir, etdiklərinin pislik olduğunu anlayır. Məsələ burasındadır ki, o an uzun müddət sonra heç olmasa pislik edərək nə isə hiss edə bilməyin sevincini yaşayırdı. Qalib biletin pulunu götürmək üçün yaxınlaşarkən çox utanır, sevinc hissi itir. Yad insanın puluna toxunmamaq üçün anidən əlini geri çəkir. Digər insanlar öz sırasını gözlədiyi üçün məcburən, iyrənərək pulu götürür. Az əvvəl sevinən insan indi vicdan və utanc hissi yaşayır. Uşaqlıqdan bəri təmiz vicdan anlayışı ilə böyümüş insan bu pullardan iyrənir. *"Kölgəni sıxışdıran və nəzarət altında saxlayan psixikanın mərkəzində olan eqodur. Bəzi hallarda eqo aradan qal-*

*dırıla bilər və kölgə fərdin münasibət və davranışlarında əks oluna bilər. "Nə olub? "Başa düşmədim, hər şey birdən oldu",... "O qədər əsəbiləşdim ki, görmə qabiliyyətimi itirdim" dediyimiz hallardır. Səbəb isə kölgənin şüuraltıdan şüurlu səviyyəyə yüksəlməsidir. Kölgə fərdin bir hissəsidir, varlığının bir hissəsidir. Bu kəsilmiş hissədir. Amma insan ayrılsa da, kölgəsi yenə də ona bağlı qalır"* (1, s. 290).

Gəncin həyatı, yaşadığı şərtlər özü ilə üzləşməyə icazə verməmişdi. Getdikcə hissizləşən insan əsəb, pislikdən gələn zövq hissinə belə sevinir, o özünə pis olmağa icazə verir. Lakin o, duyğusuz deyildi, çünki xəcalət də bir hissdir. İnsan bir bütündür, ancaq yaxşı və ya ancaq pis ola bilməz, insan rəngarəngdir, individualdır. Tolstoyun "Dirilmə" əsərində dediyi kimi: *"İnsanlar da çaylar kimidir: bütün çayların da suyu eynidir və hamısında həmin sudur, amma hər bir çay gah daralır, gah iti axır, gah genəlir, gah dinc axır, gah təmiz olur, gah soyuyur, gah bulanır, gah ilıq olur. İnsanlar da belədir. Hər bir insanda bütün insan xüsusiyyətlərinin rüşeymi var və o, gah bir cəhəti, gah o biri cəhəti büruzə verir, əslində həmin adam olub qaldığı halda, çox vaxt heç özünə bənzəmir"* (4, s. 209). Gənc bütün bunlardan sonra yenə yarışa davam edir, artıq o, həyəcanlı idi və yarışdan zövq alır. Öz kölgəsi ilə üzləşmək təsirini göstərir. O həmin mühitdən uzaqlaşır, sakitləşib öz vicdanına suallar verir. Özünə yüksək səslə "oğru" deyir, amma heç nə hiss etmir. Utanmaq istəyir, amma utanmır, hətta etdiklərindən məmnun görünür. Sevinir, çünki bunları etdiyi zaman o, illər sonra ilk dəfə canlı olduğunu, duyğularının ölmədiyini hiss edir. "İçimdə nəfəs alan kainatın bu parçasında hər şeyin sirli özəyi hələ də parlayırdı, bəzən arzunun fırlanan titrəyişlərində üzə çıxırdı. Mən də canlı idim, pis və şəhvətli istəkləri olan insan idim" (8, s. 35). Gənc anlayır ki, o özündən belə gizlənmişdi. *"Kölgə fərdin "digər", "qaranlıq", "vəhşi" və "ibtidai" tərəfini təmsil edir. "Şəxs yaşadığı cəmiyyət nə qədər dar və məhdudlaşdırıcı olsa, kölgəsi də bir o qədər geniş olar"* (1, s. 290). Hisslərini gördükcə "ölüm"dən oyanır, geridə qoyduğu soyuq, hissiz cəmiyyətdən özünü ayrı hiss edir. Faytonla gedərkən içində sanki bir musiqinin səsləndiyini eşidir, "ölüm"dən oyanıb özünü anladıqdan sonra başqalarını dərindən görüb anlamağa başlayır, insanlar ona maraqlı gəlir. İndi o, anlayır ki, sevgi öz içindədir və sevgiyə, sevməyə ehtiyacı var. Əvvəl isə digər insanlar ona maraqlı gəlmirdi, çünki özü ilə dialoqunu itirmişdi. Haqqında tək bildiyi zəngin və zadəgan ailədən olduğu və yüksək cəmiyyətə mənsubluğu idi. Öz maraqları, özünün nə istədiyi, nəyin onu xoşbəxt etdiyini o qədər bilmirdi ki, o, qəribə, nadir şərab stəkanları kolleksiyası yığırdı. Öz daxili dünyasının boşluğunu belə kompensasiya etmək istəyirdi ki, canlı hiss etsin.

Əslində isə gəncin daxili dünyası boşluqdan ibarət deyildi, sadəcə özünü tanımırdı. Özü ilə bağlı yeni şeylər öyrəndikcə həm təəccüblənir, həm də canlı insan kimi hiss etdiyi üçün sevinirdi. Gənc artıq sərbəst olmaq, insanlar üçün nəsə etmək, onların həyatına toxunmaq ehtiyacı hiss edir. Yolda uşağa yaxşılıq etmək, onun əylənməsinə şərait yaratmaq istəyir. *"Şübhəli fiqurların, cəmiyyətin bu kənar fiqurlarının başgicəlləndirici yerişində öz əksimi hiss etdim"* (8, s. 45). Əvvəl yüksək cəmiyyətin durğunluğu öz əksini görən qəhrəman, indi isə sadə insanların sadə yerişində öz əksini görür, çünki onda dəyişiklik baş vermişdir. Gənc fahişə qadını görür və ona qarşı mərhəmət hiss edir. Qadına çox hörmətlə, sevgiylə yanaşır, onun əlini oxşayır və öpür. Qadında da ona qarşı mərhəmət yaranır. Gənc ilk dəfə birinin onu gerçək olaraq düşünməsinin, soruşmasının, başqa biri üçün yaşamağın sevincini və zövqünü yaşayır. Aristotel xeyirxahlıq anlayışına "ehtiyacı olan şəxsə heç bir qarşılıq gözləmədən kömək etmək" kimi tərif vermişdir. Sevinc, inam və şərəf kimi müsbət emosiyalar xeyirxah əməllərin nəticəsində müsbət mühit yaradır. Araşdırmalara görə, bioloji olaraq yaxşı işlər gördüyümüz zaman beynimizin yemək və istirahət kimi vəziyyətlərdə stimullaşdırılan həzz və mükafat mərkəzi işə düşər və bu davranışlar təkrarlandıqca daha çox xeyirxah əməllər etmək potensialımız artar. Romanda gənclə bağlı başqa bir epizoda baxaq: iki kişi onun qarşısına çıxır və onu qorxutmaq, bütün pulu almaq istəyir. Gəncin daxilindəki günahkar onları anlayır.

Onların işgəncə etmək istəklərinə qarşılıq olaraq gənc səssizliyi ilə onlara işgəncə edir, oğrular da qorxur. Bu an onun daxilində bu şəxslərə qarşı sonsuz sevgi, mərhəmət oyanır. "Özü bu qədər zənginlik içində oğruluq etdiyi halda, ehtiyac üçün oğruluq edən insanı necə mühakimə edə bilərdi?" – deyə düşünür. Onların qorxmasından zövq aldığı üçün xəcalət hissi etdi. *"Vicdan insanı öz davranışı haqqında mühakimə yürütməyə sövq edir. İnsanın öz əxlaqi dəyərləri haqqında birbaşa və kortəbii mühakimə yürütməsinə şərait yaradan gücdür"* (2, s. 128). Gənc oğruları həm qorxutmaq istəyir, həm də qorxudan xilas etmək. Kölgəsini idarə etmək istəyir, insanlarla artıq "oynamaq" istəmir. Oynamır, utandırmır, onları daxildə sevdiyini anlayır. Bu sevgini hiss etmək, onlara özündən nəsə vermək ona zövq verir. Həmin gün ata yemək verməsi və qarşılığında atın onu qoxlaması, şar satan kişinin bütün şarlarını alması onu xoşbəxt edir. Kimisə xoşbəxt etməyi və bunun necə yaxşı təsir etdiyini bu günə kimi heç anlamamışdı. *"Artıq sadəcə öncədən olduğum kimi dürüst, duyğusuz, dünyadan qopmuş bir insan olmaq istəmirdim. Günah və qorxunun bütün dərinliklərini görmək yaxşıdır, amma yenə də həyatın gerçəkliyində bunu etmək lazımdır"* (8, s. 61). Bundan sonra o bütün həyatı boyu gerçək kimliyi ilə yaşayır. Qəzetlər, kitablar, təbiət, insanlar onu həyəcanlandırır. İllərdir yanında olduğu xidmətçisi ilə ünsiyyət qurur, onu dinləyir, müzakirələr edir. Xidmətçisinin qızının ölməsindən danışması gənci kədərləndirir. *"İnsan gərək özündəki hər iki hissə ilə əlaqə yarada bilsin. Çünki o, bu iki hissədən birini o birinin xeyrinə sıxışdırıb aradan çıxarmaqla deyil, onları birləşdirməklə bütöv insan şəxsiyyəti haqqında təsəvvür qazana bilər"* (6, s. 75). Çünki o, kölgəsi ilə üzləşib onu qəbul etmiş, onu idarə etməyi öyrənmiş və artıq bütöv insan olmuşdu, həyatı gerçək olaraq hiss edərək yaşamağı bacarmışdı. *"Nə qədər ölü olduğumu heç vaxt anlamadılar, indi nə qədər diri olduğumu da anlamayacaqlar. İnsan öz daxilindəki insanı anlayarsa, bütün insanları anlayar"* (8, s. 63- 64).

**Nəticə**

Stefan Svayq "Möcüzəvi gecə" əsərində insanın şəxsiyyətə çevrilmə prosesinin psixoloji modelini bədii düşüncənin predmetinə çevirir. Gəncin timsalında insanın kölgə və persona çatışmasının yaratdığı dinamikanı izləyir. "Möcüzəvi gecə" yalnız fərdi psixoloji dönüşümün deyil, həm də insanın məna axtarışının, həyata yenidən bağlanmasının poetik və simvolik ifadəsidir. Svayq burada insanın ən dərin ruhi qatlarına enərək öz həqiqi "mən"ini kəşf etməsini və bununla öz şəxsiyyətini tapmasını göstərir. Bu baxımdan əsər həm ekzistensial, həm də psixoanalitik yönləri ilə dərin mənalar ehtiva edir. Nəticədə, gənc kölgəsi ilə birləşərək bütöv şəxsiyyətə çevrilir və həyatı daha canlı hiss edir.

**ƏDƏBİYYAT**


1. Gülcan C. Psikolojik Tipler ve Jung Psikolojisi Üzerine Bir Değerlendirme // Karadeniz ve sosyal bilimler dergisi, 2020, №23, s. 566-579. (https://dergipark.org.tr/tr/download/article-file/959690).
2. İmamoğlu A. Vicdan Kavramının Psiko-Sosyal Tahlil // Akademik İncelemeler dergisi, 2010, №1, s. 127-144.
3. Kocabıyık Y. Küheylan Oyununda Persona ve Gölgenin Alan Strang Üzerindeki Karşılığı // Art-E Sanat dergisi. 2018, №11, s. 252 – 263. (https://dergipark.org.tr/tr/download/article-file/624592).
4. Lev T. Dirilmə. Bakı. Şərq-Qərb, 2007, 479 s.
5. Yunq K. İnsan ve Sembölleri. İstanbul: Okyanus Yayınları, 2007, 319 s.
6. Yunq K. Kəşfedilməmiş mənlik. Bakı: Kosmo, 2024, 152 s.
7. Yüksel İ. Varoluşsal Anlam Arayışı ve Kutsalın Etkisi. GAB Akademi. 2021, №1, s. 65-88. (https://dergipark.org.tr/tr/download/article-file/2631701).
8. Zweig S. Olağanüste Gece. Kızıl Panda. 2021, 64 s.

***Резюме***

***Айшен Гараханова***

***Распад и выражение персоны в произведении Стефана Цвейга «Чудесная ночь»***

Рассказ Стефана Цвейга «Волшебная ночь» (A Magical Night) исследует духовное пробуждение молодого человека, который ведет богатую, беззаботную, аристократическую жизнь. Хотя он живет в достатке благодаря большому наследству, его жизни недостает цели, эмоциональной глубины и истинного самосознания. Он скрывается за социальной «персоной» и остается оторванным от своих подлинных эмоций и потребностей. Его повседневная рутина наполнена поверхностными удовольствиями – азартными играми, охотой и мимолетными отношениями, – что подчеркивает его эмоциональное оцепенение. Даже значимые события, такие как получение письма о разрыве отношений или смерть близкого друга, не способны вызвать в нем глубоких чувств, раскрывая внутреннюю пустоту и отстраненность.

Однажды, во время обычной прогулки, его внезапно трогает красота природы. Этот момент становится поворотным пунктом, знаменуя его первую встречу со своей внутренней «тенью» – подавленной, более темной стороной его личности. Он начинает осознавать скрытые желания и чувства, а также вину и моральный конфликт. Эта внутренняя конфронтация подталкивает его к самоанализу и эмоциональному пробуждению.

Постепенно начинают проявляться такие эмоции, как сострадание, любовь и доброта. Он находит радость в помощи другим и разделении их счастья, превращаясь из духовно «мертвого» человека в по-настоящему живого. Рассказ подчеркивает важность признания своей тени для достижения внутренней целостности. Цвейг мастерски показывает, как самопознание и эмоциональная глубина необходимы для обретения смысла жизни. Баланс между эго и персоной представлен как решающий фактор для личностного роста и аутентичности.

**Ключевые слова:** *Стефан Цвейг, Карл Густав Юнг, архетип, тень, персона.*

***Summary***

***Ayshen Garakhanova***

***The Dissolution and Expression of the Persona in Stefan Zweig's "A Miraculous Night"***

Stefan Zweig's short story "A Magical Night" explores the spiritual awakening of a young man who leads a wealthy, carefree, aristocratic life. Although he lives in comfort thanks to a large inheritance, his life lacks purpose, emotional depth, and true self-awareness. He hides behind a social "persona" and remains disconnected from his real emotions and needs. His daily routine is filled with superficial pleasures – gambling, hunting, and fleeting relationships – which highlight his emotional numbness. Even significant events like receiving a breakup letter or the death of a close friend fail to stir deep feelings in him, revealing an inner emptiness and detachment.

One day, during a casual walk, he is suddenly moved by the beauty of nature. This moment becomes a turning point, marking his first encounter with his inner "shadow"—the repressed, darker side of his personality. He begins to recognize hidden desires and feelings, along with guilt and moral conflict. This inner confrontation pushes him toward self-reflection and emotional awakening.

Gradually, emotions such as compassion, love, and kindness begin to surface. He finds joy in helping others and sharing in their happiness, transforming from a spiritually "dead" man into someone truly alive. The story emphasizes the importance of recognizing one's shadow to achieve inner wholeness. Zweig masterfully illustrates how self-discovery and emotional depth are essential to finding meaning in life. The balance between ego and persona is presented as crucial for personal growth and authenticity.

**Key words:** *Stefan Zweig, Carl Gustav Jung, archetype, shadow, persona*

Redaksiya heyətinin üzvü fil.e.d., dos. Məmmədova-Kekeç Elmira Fikrət qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.